# Səhnəmizin Məcnunu:
# sənətə həsr olunan ömür



**Bəzən bir insanın ömrü sadəcə yaşadığı illərlə deyil, yaratdığı əsərlərlə, qoyub getdiyi mirasla ölçülür. Hüseynqulu Sarabski də elə bir insan idi ki, səhnəyə çıxanda zaman dayanır, tamaşaçı onun səsində, hərəkətlərində, baxışlarında hikmət tapırdı. O, səhnənin ruhunu hiss edən, hər obraza can verən, tamaşaçını güldürən, düşündürən, ağladan bir sənət fədaisi idi. Hüseynqulu Sarabski Azərbaycan teatrının ilk Leylisi, opera səhnəmizin unudulmaz siması, mədəniyyət tariximizdə silinməz iz qoyan sənətkardır. O, yalnız "Leyli və Məcnun"un ilk Məcnunu deyildi, həm də Azərbaycan səhnəsinin Məcnunu, sənətə eşq, teatra sədaqət, musiqiyə vurğunluq ilə yoğrulmuş bir ruh idi.**

Azərbaycan opera müğənnisi, aktyor, rejissor, pedaqoq, teatr xadimi, Azərbaycanın xalq artisti, Azərbaycan peşəkar musiqi teatrının banilərindən biri Hüseynqulu Sarabski 20 mart 1879-cu ildə Bakıda anadan olub. 1908-ci ildən "Nicat" cəmiyyəti nəzdində "Müsəlman Opera truppası"nın yaradıcılarından biri və solisti, Məcnun ("Leyli və Məcnun"), Şeyx Sənan ("Şeyx Sənan"), Kərəm ("Əsli və Kərəm"), Sərvər ("O olmasın, bu olsun"), Şah İsmayıl ("Şah İsmayıl") operalarındakı partiyaların ən yaxşı ifaçılarından biri olmuşdur.

Opera müğənnisi İçərişəhərdə Yeddilər məhəlləsində dünyaya gəlib. Gəmi kapitanı olan atası Məlikin İrana, Həştərxana və Xəzər sahilindəki digər şəhərlərə etdiyi səfərlər ailənin gündəlik yaşayışına çətinlik gətirirdi. 1881-ci ildə Türküstanda dəmir yol çəkilişi zamanı atası gəminin bütün heyəti və yükü ilə birlikdə sulara qərq olur. Anasının ikinci dəfə ərə getməsindən sonra Hüseynqulunun çətin günləri başlayır. Hüseynqulu Sarabskinin tərbiyəsində əsas rolu anası Cəvahir xanım oynayıb, o, oğluna təhsili verməyə çalışıb. İlk olaraq İçərişəhərdəki Şah məscidinin yanında, 9 saylı evdə yaşayan Anaqızdan ibtidai dini təhsil alıb, sonra isə Məsməxanımın yanında bu işi davam etdirib. Ancaq mollalıq peşəsinə meyli olmadığı üçün Hüseynqulu çərəkəni tamamlamayıb. Atalığı onu üstüörtülü bazarda papaqçı Babanın yanına şəyirdliyə göndərmiş, daha sonra bənna yanında palçıq daşıyan olmuşdur. Bir müddət ağ daşyonan kimi də fəaliyyət göstərmişdir. İlk dəfə 1902-ci ildə Nəriman Nərimanovun "Dilin bəlası" pyesində Rəsul rolunda çıxış edən Hüseynqulu sonralar teatr səhnəsində Mirzə Fətəli Axundovun, Nəcəf bəy Vəzirovun, Əbdürrəhim bəy Haqverdiyevin dram əsərlərində bir sıra mübariz xarakterli rollar oynamış, Azərbaycan dilinə tərcümədə Uilyam Şekspirin, Heynenin, Şillerin, Qoqolun əsərlərində də çıxış etmişdir. Məhz Henrix Heynenin "Əlmənsur" pyesində ərəb səyyahının rolunda çıxış edərkən oxuduğu təsiredici "Hicaz" muğamı onun Azərbaycan mədəniyyətinin yeni bir aləminə, musiqili teatra, operaya gətirir. Üzeyir Hacıbəyli Hüseynqulu Sarabskinin opera artisti kimi potensialını görür və onu Məcnun roluna dəvət edir.



Hüseynqulu Sarabski gözəl səsi ilə tanınan sənətkarlardan biri kimi 1908-ci ilin yanvarında səhnələşdirilmiş Azərbaycanın ilk milli operası - dahi bəstəkar Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasının premyerasında Məcnun rolunu ifa etmişdir. Bu çıxışdan sonra o, opera sənətinin görkəmli ustadlarından biri kimi tanınmışdır. O, Məcnun, Şeyx Sənan, Şah Abbas, Zöhrab, Kərəm, Aşıq Qərib, Şah İsmayıl, Mərcan bəy, Sərvər və tacir Əsgər kimi obrazları yüksək ustalıqla canlandıraraq onların ölməz simasını yaratmışdır. Bundan əlavə, Sarabski rejissor kimi bir çox opera, operetta və dram tamaşalarına səhnə quruluşu vermişdir. Onun məlahətli səsi 40 ildən artıq müddət ərzində Azərbaycan opera səhnəsində səslənmişdir. Azərbaycan klassik musiqi sənətinin görkəmli nümayəndələrindən biri olan Sarabski eyni zamanda "Dağlar" və "Muğan" kimi məşhur mahnıların müəllifidir. Sonrakı illərdə o, Azərbaycan Dövlət Opera və Balet Teatrında yaradıcılıq fəaliyyətini davam etdirmiş, eyni zamanda Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında muğam sənətindən dərs demişdir. Yetirmələri sırasında Azərbaycanın tanınmış artist və xanəndələri olmuşdur. Həyatının son illərində isə respublika xalq yaradıcılığı evinə rəhbərlik etmişdir.

Onun çoxşaxəli istedadı ədəbi yaradıcılıq sahəsində də özünü göstərmişdir. "Cəhalət", "Axtaran tapar" və "Nə doğrarsan aşına, o çıxar qaşığına" kimi dram əsərlərinin müəllifi olmuş və bu pyeslər inqilabdan əvvəl Azərbaycan səhnəsində tamaşaya qoyulmuşdur. Bundan başqa, o, "Azərbaycan milli kostyumu", "Azərbaycan teatr tarixinin oçerkləri", "H.Ərəblinskinin tərcümeyi-halı" və 1926-cı ildə çap olunmuş "Bir aktyorun xatirələri" adlı əsərləri ilə də tanınmışdır. Hüseynqulu Sarabski 1938-ci ildə qələmə aldığı "Köhnə Bakı" əsərində inqilabdan əvvəlki Bakının həyat tərzi və məişəti haqqında dəyərli məlumatlar vermişdir. Müəllif bu kitabda etnoqrafik materiallardan istifadə edərək, o dövrün hadisələrini və şəhər əhalisinin yaşamını oxuculara çatdırmışdır.

Hüseynqulu Sarabski sənət sahəsində uzunmüddətli və məhsuldar fəaliyyətinə görə, 1922-ci ildə Azərbaycan SSR Əməkdar artisti, 1932-ci ildə isə Xalq artisti fəxri adlarına layiq görülmüşdür. 1934-cü ildə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin üzvü, 1938-ci ildə isə Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdir. O, həmçinin Azərbaycan SSR Ali Sovetinin əfv komissiyasının üzvü olmuş və dəfələrlə Azərbaycan SSR Ali Məhkəməsində xalq iclasçısı kimi fəaliyyət göstərmişdir. 1938-ci ildə Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündən sonra "Qırmızı Əmək Bayrağı" ordeni ilə, İkinci Dünya müharibəsi illərində isə "Qafqazın müdafiəsinə görə" medalı ilə təltif olunmuşdur. Hüseynqulu Sarabski 16 fevral 1945-ci ildə vəfat etmişdir.

**Nurcan SÜLEYMANOVA,**
**"Respublika".**

Respublika .- 2025.- 20 mart (№ 61).- S.18.